### *Bil 20 Yanvardır*

Gördün ki, şimaldan şütüyür tanklar,
Gördün ki, havada barıt iyi var,
Ah çəkir analar, ağlayır zar-zar
– Bil, 20 Yanvardır!

Gördün avtomatdan güllə ələnir, Azadlıq
yoluna qan səpələnir,
Fəryadıma Allah göylərdən enir
– Bil, 20 Yanvardır!

Gördün buludlarda gizlənir səhər,
Matəm köynəyini geyinir şəhər,
Üçrəngli bayraqdan asılıb kədər
– Bil, 20 Yanvardır!

E1 ağı deyəndə şəhid anama,
Düzdə ceyranıma, göldə sonama,
Kişilər ağlamaz... ağlayır amma
– Bil, 20 Yanvardır!

Gördün azadlığın doğur ülkəri,
Toy-düyün bürüyür bizim elləri,
Onun təməl daşı, onun cövhəri
- Bil, 20 Yanvardır!

Dəmirli D. Bil, 20 yanvardır : şeir // Vətən imtahan verir : şeirlər, mənzum felyetonlar və məqalələr. – Bakı : Araz, 2004. – S.15-16. ; Həyat qəzeti. 1993. - 23yanvar.